

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 166 (21.576)

*6 sentyabr 2016-cı il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*Rəsmi xronika*

Bakının Xətai rayonundakı 265 nömrəli tam orta məktəbin müəllim və şagird kollektivi yeni tədris ilinə əsaslı təmir olunmuş binada başlayacaq.

Sentyabrın 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev məktəbin binasında əsaslı təmirdən sonra yaradılan şəraitlə tanış olub.

Məlumat verilib ki, bu təhsil ocağı dövlətimizin başçısının Sərəncamı ilə təsdiq edilmiş “2014-2016-cı illərdə Bakı və ətraf qəsəbələrin sosial-iqtisadi inkişafı Dövlət Proqramı”na uyğun olaraq əsaslı surətdə təmir edilib.

Məktəbin bütün otaqları, o cümlədən fizika, kimya, biologiya, informatika otaqları zəruri avadanlıqla təchiz edilib. Burada şagirdlərə ən yüksək səviyyədə təhsil vermək üçün hərtərəfli şərait var. 1076 şagird yerlik məktəbdə tədris ikinövbəlidir. Məktəbdə tədris Azərbaycan və rus dillərində aparılır. Hazırda məktəbdə 48 sinifdə 1060 şagird təhsil alır. Təhsil ocağında 135 nəfər çalışır ki, bunlardan 109-u müəllimdir.

Şagirdlər məktəbin zəngin kitabxanasından bəhrələnəcəklər. Kitabxananın 5 minə yaxın bədii ədəbiyyat və 20 minədək dərslik fondu var.

Təhsil ocağının idman zalında voleybol, həndbol, futbol, gimnastika, tennis və idmanın digər növləri ilə məşğul olmaq üçün hər cür şərait yaradılıb.

Məktəbdə yaradılan şəraitlə tanış olan dövlətimizin başçısı kollektivə uğurlar arzulayıb.



## Payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələr müzakirə olunub

***Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsində payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələr müzakirə olunub.***

Bu məqsədlə keçirilən iclası giriş sözü ilə açan komitə sədri, gömrük xidməti general-leytenantı Asəf Məmmədov hər il payız-qış mövsümünə hazırlıq işlərinin əvvəlcədən görülməsinin soyuq aylarda yarana biləcək çatışmazlıqların qabaqcadan aşkarlanaraq aradan qaldırılmasına imkan yaratdığını deyib.

Vurğulanıb ki, avqust ayının 26-da Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2016-2017-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilən müşavirədə Dövlət Gömrük Komitəsinə Fövqəladə Hallar Nazirliyi və Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi ilə birgə standartlara uyğun olmayan və sənaye üsulu ilə hazırlanmayan qızdırıcı elektrik və qaz cihazlarının muxtar respublikaya gətirilməsinə və istismarına yol verilməməsi ilə bağlı tapşırıq verilib.

Komitə sədri qeyd edib ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1993-cü il 1 iyul tarixli Qərarına əsasən, qızdırıcı elektrik və qaz cihazlarının idxalı zamanı standartlara uyğunluğa dair sertifikat tələb olunur. Həmçinin “Naxçıvan Muxtar Respublikasının gömrük sərhədindən keçirilən malların və nəqliyyat vasitələrinin bəyan edilməsi Qaydaları”nın təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2014-cü il 4 sentyabr tarixli Qərarına əsasən, elektrik və qazla işləyən qızdırıcı cihazların muxtar respublikaya idxalına Azərbaycan dilində istifadə qaydaları və standartlara uyğunluğa dair sertifikat olduqda icazə verilir. Bu tip mallar fiziki şəxslər tərəfindən şəxsi istifadə üçün gətirildikdə də Azərbaycan dilində istifadə qaydalarının olması və milli standartlara uyğunluğuna dair müvafiq dövlət orqanının icazə sənədi tələb olunur.

Tədbirdə çıxış edən komitə sədrinin müavini, gömrük xidməti general-mayoru Səhət Həbibbəyli gömrük orqanlarında qışa hazırlıqla bağlı görüləcək işlərdən danışıb. Qeyd olunub ki, qazanxanaların fəaliyyəti, elektrik enerjisi ilə təchizat, su və kanalizasiya xətlərinin vəziyyəti, avtomaşınların sazlığı, əməkdaşların qış geyim dəstiylə təchizatı məsələləri istiqamətində görüləcək işlər vaxtında başa çatdırılacaq, payız-qış mövsümündə də gömrük nəzarəti zonalarında və inzibati binalarda xidmətin yüksək səviyyədə təşkili təmin olunacaqdır.

Komitənin Gömrük nəzarətinin təşkili şöbəsinin rəisi, gömrük xidməti polkovnik-leytenantı Zaur Bağırov müşavirədə verilmiş tapşırığın icrasının təmin olunması ilə əlaqədar görüləcək işlərdən danışarkən vurğulayıb ki, aidiyyəti dövlət orqanları ilə birgə hazırlanmış tədbirlər planına əsasən, sahibkarlıq subyektlərində standarta uyğun olmayan və sənaye üsulu ilə hazırlanmayan qızdırıcı elektrik və qaz cihazlarının satışının qarşısının alınması və gətirilmə yollarının müəyyən edilməsi məqsədilə reydlərin təşkili nəzərdə tutulub.

Tədbirə yekun vuran komitə sədri Asəf Məmmədov standarta uyğun olmayan və sənaye üsulu ilə hazırlanmayan qızdırıcı elektrik və qaz cihazlarının muxtar respublikaya gətirilməsinə məhdudiyyətlərlə bağlı gömrük orqanlarının haqlı tələblərinin vətəndaşlar tərəfindən narazılıqla qarşılanmaması üçün maarifləndirmə işlərinə diqqətin artırılmasının vacibliyini bildirib.

## Mədəniyyət və Turizm Nazirliyində kollegiya iclası keçirilib

*Payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə bağlı keçirilən kollegiya iclasını Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri Natəvan Qədimova açaraq çıxış edib.*



Bildirilib ki, bu gün muxtar respublikamızda 29 muzey, 3 dövlət teatrı, 2 dövlət filarmoniyası, 400-dən çox klub, mədəniyyət evi, kitabxana, mədəni-maarif müəssisəsi, 27 uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəbi və digər mədəniyyət obyektləri fəaliyyət göstərir. Bu, o deməkdir ki, 500-dən çox mədəniyyət obyektinin payız-qış mövsümünə normal hazırlığı təşkil edilməlidir. Buna görə də rayon (şəhər) mədəniyyət və turizm şöbələrinin müdirləri, respublika müəssisələrinin rəhbərləri indidən işlərinin düzgün qurulması, müəssisələrdə təhlükəsizlik qaydalarına əməl edilməsi, mal-materialların təyinatı üzrə düzgün bölünməsi və səmərəli istifadəsini nəzarətdə saxlamalıdırlar.

Vurğulanıb ki, Naxçıvan şəhər 2 nömrəli və Sədərək Rayon Uşaq Musiqi məktəblərinin, həmçinin Şərur rayon Yuxarı Yaycı, Oğlanqala, Kürçülü, Axaməd, Şahbuz rayon Daylaqlı, Kiçikoba, Babək rayon Xəlilli, Yarımca, Xalxal, Kəngərli rayon Yurdçu, Ordubad rayon Gilançay, Tivi, Culfa rayon Gal, Qızılca, Saltaq kəndlərində kənd mərkəzlərinin tikintisi başa çatdırılıb. Bu ünvanlarda klub müəssisələri və kənd kitabxana filialları üçün yerlər ayrılıb. Həmin obyektlərin istilik sistemi müasir tələblər səviyyəsində qurulub. Eyni zamanda Culfa rayonunun ərazisindəki “Əlincəqala” Tarix-Mədəniyyət Muzeyi və “Gülüstan” Tarix-Mədəniyyət Qoruğunun inzibati binası istilik sistemi ilə təmin edilib.

2015-2016-cı illərin payız-qış mövsümündə muzeylərdə, kitabxanalarda, klub müəssisələrində mədəni xidmət işinin düzgün qurulması, həmçinin uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərində tədrisin yüksək səviyyədə aparılması üçün payız-qış mövsümü ərzində ortaya çıxan problemlər aradan qaldırılıb.

Diqqətə çatdırılıb ki, 2016-2017-ci illərin payız-qış mövsümünə hazırlıq çərçivəsində müəssisə və təşkilatlara lazım olan mal-materialların siyahısı hazırlanıb, müəssisələrin istilik sistemlərinə baxış keçirilib, payız-qış mövsümünə hazırlıqla bağlı tədbirlər planı hazırlanıb.

Sonra Şərur Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri Əli Qənbərov, C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının direktoru Rza Xudiyev, Naxçıvan Şəhər Mədəniyyət və Turizm Şöbəsinin müdiri İmamqulu Əhmədov, Naxçıvan Dövlət Tarix Muzeyinin direktoru Nizami Rəhimov qışa hazırlıqla bağlı görülmüş işlər və qarşıda duran vəzifələrdən danışıblar.

Payız-qış mövsümünə hazırlığın vəziyyəti və qarşıda duran vəzifələrlə bağlı kollegiya iclasına mədəniyyət və turizm naziri Natəvan Qədimova yekun vurub.

## Payız-qış mövsümündə əhalinin ərzaq məhsullarına olan tələbatının ödənilməsi istiqamətində ardıcıl tədbirlər görülür

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyində də 2016-2017-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar tədbir keçirilib.***

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası iqtisadiyyat nazirinin müavini Anar Əhmədov bildirib ki, 2016-2017-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisində keçirilmiş müşavirədə İqtisadiyyat Nazirliyinin qarşısında da bir sıra vəzifələr qoyulub. Bu məqsədlə muxtar respublikada daxili bazarın qorunması, kənd təsərrüfatı məhsulları istehsalının stimullaşdırılması, istehsalçılar üçün normal şəraitin yaradılması, soyuducu anbar və istixanalardan səmərəli istifadə etməklə əhalinin tələbatının tam ödənilməsinə nail olunması istiqamətində icra planı hazırlanıb.

Tədbirdə vurğulanıb ki, hazırda muxtar respublikada fəaliyyəti bərpa edilmiş və yeni qurulmuş müəssisələrdə 366 növdə, 1100-dən çox çeşiddə məhsul istehsal olunur, 344 növdə məhsula olan tələbat yerli istehsal hesabına ödənilir. Payız-qış mövsümünə hazırlıqla əlaqədar meyvə-tərəvəz məhsullarının tədarük olunması diqqətdə saxlanılıb və muxtar respublika ərazisindəki soyuducu anbarlara 27 iyun 2016-cı il tarixdən 29 avqust 2016-cı il tarixədək cəmi 2 min 421 ton kənd təsərrüfatı məhsulu, o cümlədən 2 min 44 ton kartof, 155 ton soğan, 2 ton alma və 220 ton ərik məhsulları tədarük olunub. Soyuducu anbarlardan səmərəli istifadə etmək məqsədilə anbarlardakı boş qalan kameralar sahibkarlar tərəfindən istehsalçılara icarəyə verilib ki, hazırda bu kameralarda icarə olaraq 582 ton məhsul saxlanılır. 2016-cı ilin ötən dövrü ərzində Şərur rayonunda ümumi tutumu 1000 ton olan 4 soyuducu anbar istifadəyə verilib. Ümumilikdə, muxtar respublika üzrə hüquqi və fiziki şəxslər tərəfindən ümumi tutumu 13730 ton olan 26 soyuducu anbar istifadədədir.



Muxtar respublika əhalisinin qış mövsümündə keyfiyyətli tərəvəz məhsulları ilə təmin olunmasında istixana kompleksləri mühüm əhəmiyyət kəsb edir. Cari ilin ötən dövründə ümumi sahəsi 4400 kvadratmetr olan 2 istixana kompleksi istifadəyə verilib və bununla da, muxtar respublikada istixana komplekslərinin sayı 20 olub ki, onların ümumi sahəsi 126 min kvadratmetrdən artıqdır.

Vurğulanıb ki, soyuducu anbarlara tədarük edilən meyvə-tərəvəz məhsulları və istixanalarda yetişdirilən məhsullar daxili bazarda qiymət sabitliyinin qorunmasında mühüm əhəmiyyət kəsb edir.

Ötən dövrdə muxtar respublikada taxıl tədarükü də diqqət mərkəzində saxlanılıb. Belə ki, 1 yanvar 2016-cı il tarixdən 29 avqust 2016-cı il tarixədək 23 min 622 ton taxıl tədarük olunub. 29 avqust 2016-cı il tarixə anbarlarda 11 min 594 ton taxıl və 460 ton un ehtiyatı yaradılıb. İstehsal olunan buğdanın mərkəzləşdirilmiş qaydada hər kiloqramının 30 qəpikdən satın alınması və muxtar respublikada mövcud olan 27 min ton tutumlu uzunmüddətli, 27 min 680 ton tutumlu qısamüddətli taxıl anbarlarının fəaliyyət göstərməsi taxıl ehtiyatının yaradılmasında mühüm əhəmiyyət daşıyır.

Bildirilib ki, payız-qış mövsümündə əhalinin ərzaq məhsullarına olan tələbatının ödənilməsində dövlət maliyyə dəstəyi göstərilmiş 237 heyvandarlıq, 82 ətlik və yumurtalıq istiqamətində quşçuluq, 13 balıqçılıq, 101 arıçılıq, 72 bağçılıq və üzümçülük təsərrüfatı mühüm rol oynayır. Ümumilikdə, cari ilin ötən dövrü ərzində əhalinin istehlak tələbatının yerli istehsal hesabına daha dolğun ödənilməsi məqsədilə 22 istehsal və xidmət sahəsi istifadəyə verilib, 18 istehsal və xidmət sahəsinin yaradılması istiqamətində işlər davam etdirilir.

Sonra çıxışlar olub.

**Xəbərlər şöbəsi**

# Payız-qış mövsümünə hazırlıq diqqət mərkəzindədir



***Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyində keçirilən kollegiya iclasını giriş sözü ilə açan Dövlət Energetika Agentliyinin baş direktoru Yasin Səfərov bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2016-2017-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə bağlı keçirilən müşavirədə Dövlət Energetika Agentliyinə də bir sıra tapşırıqlar verilib.***

Qeyd olunub ki, muxtar respublikada yay mövsümündə elektrik enerjisinə olan tələbat 80-85 meqavat, qış mövsümündə 45-50 meqavat təşkil edir. Əhalinin və təsərrüfat subyektlərinin payız-qış mövsümündə elektrik enerjisinə olan tələbatının ödənilməsi üçün hazırlıq işlərinə xüsusi diqqət yetirilir, lazımi mal-material ehtiyatı yaradılır. Həmçinin elektrik stansiyalarında, yüksək və alçaqgərginlikli elektrik verilişi xətlərində, müxtəlif gərginlikli transformator yarımstansiyalarında qrafik əsasında əsaslı və cari təmir işləri aparılır, tələbatçıların elektrik enerjisi ilə təchizatının yaxşılaşdırılması, yaşayış sahələrinin, məktəblərin, sosial obyektlərin, hərbi hissələrin, nasos stansiyaları və artezian quyularının elektrik təchizatı üçün yeni transformator yarımstansiyalarının qoyulması, müxtəlif gərginlikli elektrik verilişi xətlərinin çəkilməsi, Naxçıvan şəhərində və rayon mərkəzlərində mövcud hava elektrik verilişi xətlərinin kabel xətləri ilə əvəz edilməsi sahəsində kompleks tədbirlərin həyata keçirilməsi davam etdirilir.

Vurğulanıb ki, 2016-cı ilin ötən 7 ayında muxtar respublikanın şəhər və kəndlərində 1 ədəd 35/6 kilovoltluq, 23 ədəd 10/0,4 kilovoltluq yeni transformator yarımstansiyası quraşdırılıb, 26 kilometr uzunluğunda 10 və 0,4 kilovoltluq yeni elektrik verilişi xətləri çəkilib. Üç kilometr uzunluğunda 10 və 0,4 kilovoltluq hava elektrik verilişi xətləri kabel xətləri ilə əvəz edilib. Naxçıvan, Şərur və Culfa transformator təmiri sexlərində 61 ədəd 10/0,4 kilovoltluq transformator təmir edilərək şəbəkələrə qaytarılıb. Təmir sexləri lazımi ehtiyat hissələri, dolaq, elektrotexniki kağız və materiallarla təmin edilib. Əsas avadanlıq və materialların birbaşa xarici ölkələrin istehsalçı müəssisə və təşkilatlarından alınması işləri davam etdirilir. Həmçinin muxtar respublikada bütün işlədicilərin istifadə etdiyi elektrik enerjisinin dəqiq qeydiyyatını aparmaq üçün elektron sayğaclar qoyulub, enerji haqqının sayğacların göstəriciləri əsasında ödənilməsi təmin edilib. Naxçıvan şəhərində vətəndaşların evlərində smartkarttipli sayğacların qoyulması işləri davam etdirilib, ötən yeddi ay ərzində 12400 ədəd belə sayğac quraşdırılıb.

Sərf olunan elektrik enerjisinin dəyərinin vaxtında ödənilməsi də diqqət mərkəzində saxlanılıb, cari ilin yeddi ayında 6,9 faiz texniki itki nəzərə alınmaqla, işlədicilərə dəyəri 13 milyon 806 min manat təşkil edən 255 milyon 877 min kvt.saat elektrik enerjisi ötürülüb. Elektrik enerjisi satışından 13 milyon 710 min manat vəsait toplanıb, enerjinin dəyərinin ödənilməsi 99,3 faiz təşkil edib.

Sonra Arpaçay Su Elektrik Stansiyasının direktoru Əli Əsədov, Culfa və Kəngərli Rayon Elektrik şəbəkələrinin direktorları Səid Həşimov və İsmixan Nağıyev payız-qış mövsümünə hazırlıqla bağlı görülmüş işlər və qarşıda duran vəzifələrin yerinə yetirilməsi istiqamətində həyata keçiriləcək tədbirlər haqqında məlumat veriblər.

***"Naxçıvanqaz" İstehsalat Birliyində keçirilən tədbirdə birliyin direktoru Ramin İsmayılov məruzə edərək Naxçıvan Muxtar Respublikası Ali Məclisində payız-qış mövsümünə hazırlıqla əlaqədar keçirilən müşavirədən irəli gələn vəzifələr və onların icrası ilə bağlı görüləcək işlər haqda danışıb.***



Qeyd edilib ki, müşavirədən irəli gələn vəzifələr sırasında qaz təchizatı sistemində texniki baxış tədbirlərinin başa çatdırılması, mövcud nasazlıqların vaxtında aşkar edilərək aradan qaldırılması, təbii qaz nəqlinin soyuq hava şəraitinə uyğun texnoloji rejimdə həyata keçirilməsi, yerlərdə istismara yararsız vəziyyətə düşmüş qaz xətlərinin və avadanlıqların müəyyən edilərək yenilənməsi, Naxçıvan şəhərində mövcud sayğacların smartkarttipli sayğaclarla əvəzlənməsinin davam etdirilməsi, qaz təsərrüfatlarında, xüsusilə qəza xidmətində çalışanların peşəkarlıq səviyyəsini artırmaq məqsədilə onların ixtisas hazırlığına cəlb olunması və işçilərin qış mövsümünə uyğun xüsusi geyim və avadanlıqlarla təmin edilməsi də var. Verilən tapşırıqların icrasını təmin etmək məqsədilə 2016-2017-ci illərin payız-qış mövsümünə hazırlıq işləri "Naxçıvanqaz" İstehsalat Birliyinin tədbirlər planına daxil edilib.

Bildirilib ki, Naxçıvan şəhəri üzrə smartkarttipli sayğacların müasir standartlara uyğun quraşdırılması və yeni qaz təchizatı müqavilələrinin hazırlanması işləri davam etdiriləcək, payız-qış mövsümündə təbii qazdan istifadə edən bütün obyektlərin, qazişlədici cihazların vaxtında sınaqdan keçirilməsi, istilik qazanxanalarının qazın qəbuluna hazır olması, istehlakçılarla birlikdə texniki baxışdan keçirilməsi təmin olunacaqdır. Yerlərdə istismara yararsız vəziyyətə düşmüş qaz xətlərinin və avadanlıqların müəyyən edilərək yenilənməsi işləri gücləndiriləcəkdir. Qaz təsərrüfatında, xüsusilə qəza xidmətində çalışanların peşəkarlıq səviyyəsini artırmaq məqsədilə onların ixtisas hazırlıqlarına cəlb olunması işi davam etdiriləcəkdir. Hüquqi və fiziki şəxslərdən daxil olan müraciətlərə əsasən, ev, mənzil və qeyri-yaşayış obyektlərinin qazlaşdırılması işlərinin başa çatdırılması təmin olunacaq, sosial-inzibati obyektlərin qazlaşdırılmasına xüsusi nəzarət ediləcək, qaz şəbəkəsində yeri dəyişdirilməsi və yenidən çəkilməsi nəzərdə tutulan qaz xətləri üzrə işlərin həyata keçirilməsinə nəzarət gücləndiriləcək, yeni qaz xətləri çəkilərkən və ya bərpa işləri aparılarkən mövcud standartların tələblərinin gözlənilməsi diqqətdə saxlanılacaqdır.

Sonra məruzə ətrafında çıxışlar olub.

**Xəbərlər şöbəsi**

# Qədim Ordubad günü-gündən dəyişir, daha da gözəlləşir və müasirləşir

***Bəzən bir insanla bir ölkəni, bir şəhəri və kəndi tanıyırsan, o yurd haqqında səndə müəyyən təəssüratlar yaranır. Məndə də illər öncə bir tələbə yoldaşımın timsalında Ordubad haqqında gözəl təəssüratlar, xoş hisslər yaranmışdı. Nəhayət, bu bölgə ilə yaxından tanış olmaq imkanı qazandım. Rayon mərkəzinə gedərkən yolboyu salınmış yaşıllıq zolaqları ordubadlıların həm də təbiət vurğunu olduqlarından soraq verir, gördüyüm mənzərələr məndə xoş ovqat yaradırdı.***

…Ordubad şəhərinin mərkəzindəyəm. Doymuram ətrafa baxmaqdan. Qədimliyini qoruyan, müasirləşən şəhəri daha yaxından görmək üçün küçələri ilə addımlayıram. Küçələr şaxələnərək şəhərin kənarlarına uzanıb gedir, bəziləri dağa, yaxud Dübəndi çayına birləşir. Bu küçələr həm də bir-biri ilə əlaqəli olaraq mərkəzdə "Came" məscidinə və ətrafdakı küçələrə qovuşur. Şəhəri gəzdikcə bir səyyahın yazdıqları yada düşür: "Ordubad kiçik şəhərlər içərisində Avropada birinci, dünyada isə ikinci yaşayış məskənidir ki, buraya qonaq gələn nabələd adam da azıb qalmaz... qədimtipli çiy kərpicdən tikilmiş evləri olan bu kiçik şəhərə gələn hər bir kəs hara keçib getsə də, yenə gəlib mərkəzi küçədə görüşəcəkdir".

Naxçıvan-Bakı marşrut avtobusu ilə ölkəmizin paytaxtına gedəndə Araz çayı sahili ilə uzanan Ordubadı seyr edənlər heyranlıqlarını bildirirlər. Sonra rastlaşdıqları – Ordubadla həmsərhəd olan, gözdağına çevrilmiş yurd yerlərimizdən acı təəssüf hissi keçirdiklərini də xatırlayıram. Düşünürəm ki, o insan nəfəsinə həsrət evlər bax, Ordubadda da ola bilərdi. Axı ötən əsrin 90-cı illərinin əvvəllərində muxtar respublikamızın digər bölgələri kimi, Ordubad da düşmən həmləsinə məruz qalmışdı. Burda "Soyuq" adlanan sərhəd bölgəmizdə az döyüşlər getmədi. Amma

*Yol gedir Ordubada,*
*Salmasdan Ordubada.*
*Sərkərdə igid olsa,*
*Heç verməz ordu bada, –*

deyimindəki kimi, məhz müdrik sərkərdənin sayəsində – ulu öndərin Naxçıvana gəlməsi ilə bugünkü Ordubad, ümummilli liderin "Azərbaycanın incisi" adlandırdığı qədim yurd yerimiz yaşadı, bugünkü inkişafa qovuşdu.

Dünyada ən qədim insan məskənlərindən biri, bəşəriyyətin yaranma ocağı sayılan Ordubadın şairanə aşırımlı qayaları, qoca çinarları, möhtəşəm dağları buraya yolu düşən hər kəsi heyrətləndirir. Mühüm ticarət yolu ayrıcında yerləşən Ordubad Yaxın və Orta Şərq ölkələri ilə ticarət əlaqələri saxlayıb. Meyvə bağları, uzunömürlü çinar ağacları, ötən əsrin əvvəllərində keçirilmiş beynəlxalq sərgilərdə 13 dəfə qızıl medal alan ipəyi ilə məşhur olub Ordubad. Yuxarıda bəhs etdiyimiz dövrdə yüz hektarlarla meyvə bağlarının kökünə balta vuruldu. Bu gün isə yurdsevər ordubadlılar meyvəçiliyin şöhrətini özünə qaytarmaqdadırlar.

Ordubad bu gün əsl inkişaf yolundadır. Şəhərdə inşa olunan yeni binalar, kənd yaşayış məntəqələrində aparılmış kompleks quruculuq işləri, müasir tələblər səviyyəsində salınmış yollar, körpülər, suvarma, içməli su təminatının yaxşılaşdırılması və digər istiqamətlərdə həyata keçirilən tədbirlər Ordubadı müasir rayona çevirib. Bu işlər cari ilin ilk yeddi ayında da davam etdirilib.

Bəhs olunan dövrdə Ordubad dəmiryol vağzalının yeni binasının, "Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətinin İnfrastruktur İdarəsinin Ordubad Yol Sahəsinin inzibati binasının tikintisi aparılıb. Ordubad şəhərində yaradılacaq "Naxçıvanbank"ın filialı üçün binada, M.F.Axundov küçəsində 36 mənzilli yaşayış binasında əsaslı təmir işləri, onların ətraflarında və Heydər Əliyev prospektində abadlıq işləri hazırda davam etdirilir. Həmçinin Baş Dizə kəndində 156 şagird yerlik yeni məktəb binası, kənd və xidmət mərkəzləri inşa edilir, kənddaxili yollar təmir olunur, kommunikasiya xətləri yenilənir, Ordubad şəhərində içməli su və kanalizasiya sisteminin çəkilməsi işləri aparılır.

Ekoloji tarazlığın qorunması bu gün bütün dünyanı düşündürən məsələdir və Ordubad rayonunda da bu sahədə məqsədyönlü tədbirlər həyata keçirilir. Bu ilin ilk yeddi ayında Naxçıvan-Ordubad magistral yolunun kənarında, Dəstə və Aşağı Əylis kəndləri ərazisində 11,5 hektar sahədə yeni meyvə bağının salınması, 5 hektar sahədə meşə-bərpa işlərinin aparılması, yaz mövsümündə iməcilik yolu ilə 7600 ədəd meyvə, 2550 ədəd meşə tingi, 8900 ədəd gül kolu, 25 ədəd həmişəyaşıl ağac olmaqla, 19075 ədəd ting əkilməsi, Naxçıvan-Ordubad magistral yolunun Əylis kəndi ərazisində "Əylis düzü" deyilən sahədə 30 hektar meyvə bağına damcı üsulu ilə su çəkilməsi, park və xiyabanların yaşıllıq zolaqlarının sahələrinin səliqə-sahmanda saxlanılması ordubadlıların vətəndaşlıq borclarını layaqətlə yerinə yetirmələrinin bariz nümunəsidir.

Rayon əhalisinin əksəriyyəti kənd yerlərində yaşadığından aqrar sahənin inkişafı üçün dövlət tərəfindən torpaq mülkiyyətçilərinə böyük qayğı göstərilir. Ordubadlılar cari ildə 1949 hektar sahədə taxıl əkini aparıb və sahələrdən 5290 ton məhsul yığıblar. Həmçinin 575 hektar sahədə kartof əkən təsərrüfatçılar hər hektardan 146,9 sentner məhsul toplayıblar. Torpaq mülkiyyətçiləri 673 hektar sahədə tərəvəz, 41 hektarda isə bostan bitkiləri əkərək sahələrdən 2705 ton tərəvəz, 254 ton bostan məhsulu tədarük ediblər.

Kənd adamları heyvandarlığın inkişafına da öz töhfələrini verirlər. Heyvandarlar 10520 baş iribuynuzlu, 85806 baş xırdabuynuzlu və 113860 baş quş bəsləməklə, sözügedən aylarda diri çəkidə 1188,8 ton ət, 4119 ton süd, 8995,3 min ədəd yumurta, 86,2 ton yun istehsal ediblər. Ötən ilin müvafiq dövrü ilə müqayisədə ət istehsalı 1,6 faiz, süd istehsalı 1,9 faiz, yumurta istehsalı 47,9 faiz, yun istehsalı 2,5 faiz artıb.

Kənd təsərrüfatının inkişafından bəhs edəndə meliorasiya-irriqasiya tədbirlərini də unutmaq olmaz. Axı əkin sahələrinin gülüstana çevrilməsi, bol məhsul götürülməsi bilavasitə su təminatından asılıdır. İlin ötən aylarında bu sahədə də məqsədyönlü işlər görülüb. Belə ki, Qaya yurdunda 4,5 kilometr uzunluğunda olan qədim "Zəvvar arxı"nın bərpası əkinçilərə yaxşı töhfə olub, Ordubad çayının suyunun artırılması və həmin suyun bir hissəsinin Nüsnüs kəndindən dağların ətəyi ilə 3,4 kilometr uzunluğunda yeni çəkilən kanala ötürülməsi Aşağı Əylis kəndində istifadəsiz qalmış 150 hektardan çox torpaq sahəsinin əkin dövriyyəsinə qatılmasına şərait yaradıb. Dəstə, Düylün, Parağa kəndləri üçün kaptaj tikilib, Ordubad şəhəri, Aza və Düylün kəndlərində kaptajlar təmir edilib, Aza, Dəstə, Xanağa və Vənənd kəndlərində subartezian quyularının təmiri başa çatdırılıb.



Danılmaz faktdır ki, hər bir ölkənin inkişafı, ilk növbədə, onun təhsilindən asılıdır. Bu mənada, qədim diyarın ziyalıları da çalışırlar ki, bugünkü gənclər Ordubadın məşhur elm adamlarının yolunu davam etdirsinlər. Bu il orta məktəbləri 328 nəfər bitirib, onlardan 251 nəfəri ali məktəblərə sənəd verib və 167 məzun ali təhsil müəssisələrinə qəbul olunub. Qəbul imtahanlarında 45 nəfər 500-700, 13 nəfər 600-700 intervalında bal toplayıb.

Muxtar respublikada mədəniyyətə göstərilən qayğı bu qədim yurdun 1 rayon, 14 kənd mədəniyyət evi, 13 kənd klubu, 5 muzey, 1 mərkəzləşdirilmiş kitabxana sistemi və onun 35 kənd filialı, 1 uşaq kitabxanası, 2 uşaq musiqi məktəbindən də yan keçməyib, Ordubad şəhərində fəaliyyət göstərən muzeylər hər cür şəraiti olan binalarda yerləşdirilib. Ötən yeddi ay ərzində bu muzeylərdə 6 min nəfərdən çox xarici turist olub. Və onlar xoş təəssüratla geri dönüblər.

Ordubadda sakinlərin məşğulluğu da diqqətdə saxlanılıb, ilin yeddi ayında rayonda 174 yeni iş yeri açılıb ki, bunun 170-i daimi iş yerləridir.

Bəli, bu gün tarixi yurd yerimiz Ordubad sürətlə inkişaf edir. Ordubadlılar dövlətimizin dəstəyi ilə qurub-yaradır, qurulanların qorunub saxlanılmasını, gələcək nəsillərə olduğu kimi çatdırılmasını öz vəzifələri sayır, ölkədə, muxtar respublikada gedən inkişaf, tərəqqi prosesində fəallıq göstərirlər. Bunu rayon mərkəzində olduğumuz bir-iki saat ərzində də gördük.

Artıq sağollaşıb yola düşmək vaxtıdır. Mərkəzi meydana qəddqamətli xan çinarların sərin kölgə saldığı küçədə adamlar axın-axın axşam gəzintisinə çıxırlar.

Ordubadlılara, onların yaşadığı nurlu şəhərə baxıb bir şairin dediyi:

*Ordubadı nə deyim, vəsfi-gülüstana dəyər,*
*Bir əcəb guşədir ki, cənnəti-rizvanə dəyər, –*

sözlərini xatırlayıram. Düşünürəm ki, bu qədim yurd yerinin bu günü daha böyük əsərlərdə tərənnüm olunmağa layiqdir.

**Hafizə ƏLİYEVA**




*Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası Şimal İpək Yolu kimi tanınan Araz vadisində yerləşir və yalnız orta əsr deyil, həmçinin Orta Tunc dövrünün xüsusi arxeoloji əhəmiyyətini əks etdirir. Naxçıvan Təbriz, Ərzurum və Konstantinopoldan keçməklə Hindistan və Avropa ölkələri arasında əsas ticarət və iqtisadi dəhliz olmuşdur. Naxçıvan Cənubi Qafqazda mühüm əhəmiyyətli strateji ərazidə yerləşir. Zaqafqaziya, Yaxın Şərq, Orta Şərq və Aralıq hövzəsi kimi Naxçıvan da zəngin tarixi olan mühüm əhəmiyyətli regiondur. Vəli Baxşəliyevin fikrincə, Araz hövzəsi qərb və şərqdən başlayaraq kiçik Qafqazın yüksək zirvələrindən şimala, Zaqrosa və Toros dağlarından cənuba geniş dəhliz formalaşdırmışdır. Gürcüstanın Dmanisi bölgəsində tapılan hominid skelet qalıqlarına istinad etməklə demək olar ki, Erkən Alt Paleolit dövründə Araz hövzəsi hominidlərin Afrikadan Avropaya köç etməsində mərkəz rolu oynamışdır.*

# Naxçıvan-Van-Urmiya ərazilərində Orta Tunc dövrünə aid boyalı saxsı qablar

Təbii ehtiyatlar, minerallar, mis, duz və ərazinin strateji əhəmiyyəti, sənayedən əvvəlki iqtisadiyyat dövründə Naxçıvanı Azərbaycanın ən mühüm əhəmiyyətli bölgəsinə çevirmişdir. Bundan əlavə, Naxçıvan Van-Urmiya dulusçuluq mədəniyyətinin beşiyidir və Orta Tunc dövrü mədəniyyətinin təsiredici nadir cizgiləri və regional xüsusiyyətlərini özündə əks etdirən boyalı dulusçuluq mədəniyyətinin mühüm bölməsidir. Halbuki illər ərzində Van-Urmiya mədəniyyətini müəyyənləşdirmək çətin olmuşdur, lakin buna baxmayaraq, Qızılburun yaşayış məskəni və nekropollarında qeyri-sistematik qazıntılar aparılmışdır. Qazıntılar zamanı aşkar edilmiş boyalı dulusçuluq mədəniyyət nümunələri özündə Naxçıvanın Orta və Son Tunc dövrü dulusçuluq mədəniyyətinin xüsusiyyətlərini əks etdirir. Urmiya regionunun Göytəpə, Haftavantəpə, Kordlartəpə və Dinkətəpə yaşayış məntəqələrində aparılmış elmi tədqiqatlara əsaslanaraq biz Orta Tunc dövrünə məxsus boyalı dulusçuluq mədəniyyətinin yüksək inkişafını aydınca müşahidə edə bilərik.

Professor V.Baxşəliyevin fikrincə, Haftavantəpədə aşkar edilmiş dulusçuluq nümunələri Orta Tunc dövrünə aid monoxrom və polixrom boyalı saxsı qabların inkişafını nümayiş etdirir. Elmi tədqiqatların nəticələri təsdiq edir ki, bu ənənə İlkin Dəmir dövrünə qədər davam etmişdir.

"Foreign Policy News" qəzetinə verdiyi geniş müsahibəsində professor V.Baxşəliyev bəyan edir ki, Urmiya vadisindəki laylanmış yaşayış məskənləri ilə müqayisədə Orta Tunc dövrü stratiqrafiyasına Van gölü və şimal-şərqi Anadolu regionlarında nadir hallarda rastlanılıb. Haliyədə Orta Tunc dövrünün boyalı dulusçuluq mədəniyyəti nekropol ərazilərində aşkarlanmış məmulatlarda əks olunmuşdur. Yadda saxlamaq lazımdır ki, bu günə qədər regionun yaşayış məntəqələrində arxeoloji qazıntılar çox nadir hallarda aparılmışdır. Digər tərəfdən təsadüfi hallarda üzə çıxmış Orta və Son Tunc dövrünə aid olan yüzlərlə boyalı dulusçuluq nümunələri digər mədəni təbəqələrdən aşkar edilmiş nümunələrdən miqdarca daha çoxdur.

Zaqafqaziya və İranın şimal-qərb hissəsində aparılan tədqiqatlara əsaslanaraq Orta və Son Tunc dövründə Van bölgəsindəki yaşayış məskənlərində mədəni boşluqlar aşkar edilmişdir. Yaşayış yerlərinin düzənlik sahələrindəki mədəni boşluqlarına quraqlıq və iqlim çətinlikləri səbəb olmuşdur. Nəticədə, burada yaşayan icmaların təsərrüfat məhsulları yerdəyişmə ilə üzləşmişdir. Belə ki, kənd təsərrüfatı məhsullarının istehsal edilməsindən daha çox heyvandarlığa və maldarlığa üstünlük verilmişdir. Yerli əhali təhlükəsiz su mənbələrini, heyvanlarının bəslənməsi üçün otlaq sahələrini təmin etmək üçün quraqlığın daha çox təsirinə məruz qalmayan yüksəklik və yaylalara köçməyə başlamışdır. Nəticədə, biz yarımköçəri həyat tərzinin yayılmasını müşahidə edirik. Bu səbəbdən də Orta və Son Tunc dövründə düzənlik ərazilərdə mədəni qatlar çox azdır, bu dövr ərzində yuxarı dağlıq regionlarda nekropollar həmin ərazidə yaşayan icmaların boyalı dulusçuluq mədəniyyətinin zəngin və canlı xüsusiyyətlərini əks etdirir. Van regionunda aşkar edilmiş boyalı dulusçuluq məmulatlarının Orta Tunc dövründən Dəmir dövrünə qədər olan mədəni mərhələləri ətraflı olaraq tədqiq edilməlidir.

Vanın cənub-qərb bölgəsinin 9 kilometrliyində yerləşən Yoncatəpə qalası ərazisindəki nekropolda İlkin Dəmir dövrünə aid monoxrom boyalı dulusçuluq nümunələri aşkar edilmişdir. Bu araşdırma təsdiq edir ki, Orta və Son Tunc dövrünə aid olan boyalı dulusçuluq ənənələri Vanda davam etdirilmişdir. Həmçinin Yoncatəpə qalası və nekropolu mövcud olan yeganə nümunədir. Şimal-qərbi Anadoluda aparılacaq qazıntılar böyük miqdarda arxeoloji incəsənət nümunələrinin və əşyaların sayının artmasına səbəb olacaq. Hesab edilirdi ki, yeni yaşayış məskənlərinin aşkar edilməsi mədəni qatlar və təsərrüfat məqsədli qazıntılar zamanı aşkar edilmiş boyalı dulusçuluq məmulatları arasında paralellik yaradacaq.

"Foreign Policy News" qəzetinə verdiyi müsahibədə professor Oktay Bəlli bildirmişdir ki, Yoncatəpə nekropolunda son iki ildə aparılan qazıntılar zamanı onlar qara boya ilə rənglənmiş heç bir dulusçuluq nümunələrinə rast gəlməmişlər. Açıq qəhvəyi astar üzərinə çəkilmiş çarpaz və ziqzaq xətləri fincanların kənarında, yaxud qazanların aşağı hissəsində müşahidə etmək olar. Qeyd edə bilərik ki, bu naxışlar həmin qabların bütün səthlərini örtmür. Ümid edirik ki, biz növbəti illərdəki qazıntılarda yeni nümunələr aşkar edəcəyik. Naxçıvan ərazisində aşkar edilmiş Orta və Son Tunc dövrünə aid olan boyalı dulusçuluq məmulatlarının mühüm regional xüsusiyyətləri dünya arxeologiyası üçün həqiqi xəzinədir və Azərbaycanın bu qədim torpağında elmin inkişafı, həyat səviyyəsi və mədəni inkişafı özündə əks etdirir. Boyalı dulusçuluq məmulatlarının xəritəsi yalnız Naxçıvan bölgəsini deyil, həmçinin Van regionu və Urmiya vadisini də əhatə edir. Azərbaycanın bu qədim regionlarında yerləşən yaşayış məskənlərində Orta və Son Tunc dövrünə aid aşkarlanmış məmulatlar təsdiq edir ki, nadir mədəniyyət Van, Naxçıvan və Urmiya vadisində yaşayan yarımköçəri əhalinin yaşayış məskənlərində yaranmışdır. Professor Oktay Bəlli qeyd edir ki, "Bizim müddəalar təsdiq olunur, çünki Naxçıvan, Van və Urmiya vadisində monoxrom boyalı saxsı qablardan sonra polixrom saxsı qablardan geniş istifadə olunmuşdur". Əhəmiyyətli dərəcədə "Trialeti mədəniyyətinə" təsir edərək, dulusçuluq mədəniyyəti Mil-Muğan düzənliyi, Göyçə gölü və ətraf ərazilərə yayılmışdır. Beynəlxalq arxeoloqlar və alimlər Naxçıvan və Azərbaycandan olan həmkarları ilə birlikdə aparacaqları növbəti qazıntılar və tədqiqatlar zamanı polixrom boyalı saxsı qabların müəyyən ərazidə aşkarlanma səbəbini tapacaqlarına ümid edirlər.

***Peter Tase***
***30.08.2016***
***Amerika Birləşmiş Ştatlarının "Foreign Policy News" qəzeti***

# Xaraba Gilan arxeoloji ekspedisiyası Naxçıvanın tarixi ilə bağlı yeni faktlar aşkara çıxarıb

***AMEA Naxçıvan Bölməsində Xaraba Gilan arxeoloji ekspedisiyasının Ordubad rayonu ərazisində 2016-cı ildə apardığı arxeoloji qazıntılarla bağlı hesabat iclası keçirilib.***



Hesabat iclasını giriş sözü ilə bölmənin sədri, akademik İsmayıl Hacıyev açıb. Akademik Naxçıvan Muxtar Respublikasında aparılan tədqiqatlar barədə geniş məlumat verərək respublikanın tarixinin öyrənilməsi ilə bağlı məqsədyönlü tədbirlərin görüldüyünü deyib. O bildirib ki, AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu Xaraba Gilan arxeoloji ekspedisiyası 2016-cı ildə Plovdağ arxeoloji abidələr kompleksində, Xaraba Gilan orta əsrlər şəhər yerində arxeoloji qazıntı işləri aparıb və tarixi əhəmiyyət daşıyan bir çox məlumat əldə edilib. Qazıntı işlərində AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun əməkdaşları da yaxından iştirak ediblər.

İclasda ekspedisiyanın rəhbəri, tarix üzrə fəlsəfə doktoru, dosent Bəhlul İbrahimli çıxış edərək əldə olunan tapıntılar haqqında geniş məlumat verib. Bildirib ki, Plovdağ arxeoloji abidələr kompleksində aparılan arxeoloji tədqiqatların əsas məqsədi nekropolların sərhədləri və ərazilərinin dəqiqləşdirilməsi olub. Bu məqsədlə nekropolların, əsasən I, II və III nekropolun şərq və şimal tərəflərində, II nekropolun qərb tərəfində qəbir abidələri öyrənilib, sərhədləri müəyyən olunub. Eyni zamanda bir çox maraqlı materiallar əldə edilib. Bunlar içərisində əsas diqqəti cəlb edən Orta Tunc dövrünə aid içərisində səkkiz ox ucluğu olan ox qabı, sümükdən hazırlanmış dörd ədəd diş formasında iri bəzək, əqiq və başqa muncuqlardan hazırlanmış düzüm xüsusi vurğulanmalıdır.

İkinci ən maraqlı tapıntı İlk Tunc dövrünə aid gil qabın üzərindəki relyefik işarələrdir. Bu növ işarələrə həm Kültəpə abidəsində, həm də Baba Dərviş abidəsində rast gəlinib. Güman etmək olar ki, həmin qablardan ritualларда istifadə olunub.

Qeyd olunub ki, ikinci qazıntı işi Xaraba Gilan orta əsrlər şəhər yerində olub. Bu şəhərin birinci məhəlləsində böyük bir ikimərtəbəli ictimai yaşayış binasının bir hissəsi qazılıb və bu binanın I və II mərtəbələrinin iki otağı və müdafiə divarına bitişik bir otağı ilə bir dəhlizi qazılıb üzə çıxarılıb. Burada əsas diqqəti cəlb edən binanın I mərtəbəsinin mürəkkəb tağşəkilli memarlıq üslubunda tikilməsidir. Arxeoloji qazıntı zamanı tapılan müəyyən materiallar da son dərəcə maraqlıdır. Bunlara dəridən tikilmiş qadın ayaqqabısını, müxtəlif naxışlı parçaları, XII əsrə aid nəfis şəkildə hazırlanmış qabları aid etmək olar.

Qeyd edək ki, buradan Eldənizlər və Hülakülər dövrünə aid mis sikkələr də tapılıb.

# Pələ Naxçıvana məxsus qədim qayıq növüdür

***Azərbaycanda dəniz, göl və çaylar olduğu üçün su nəqliyyat vasitələri yaradılıb. Su nəqliyyat vasitələri düzəltmək qədim el sənəti kimi də məşhur olub. Pələ, kələk, qayıq su nəqliyyat vasitələrinin qədim növlərinə daxildir.***

Naxçıvanda dəniz yoxdur. Çaylardan isə su nəqliyyat yolu kimi geniş istifadə olunmayıb. Ancaq maraqlı faktlardan biri odur ki, burada "Pələ" adında su nəqliyyat vasitəsi hazırlanıb. Və pələ bir sıra regionlarda məşhurlaşıb. Bəs pələ nədir? Gəlin elə buradan başlayaq.

Pələ ibtidai salın, nisbətən, təkmilləşdirilmiş forması hesab edilən su nəqliyyatı vasitəsidir. XIX əsr və XX əsrin əvvəllərində Azərbaycanda su nəqliyyatı vasitələrinin məhəlli-lokal xüsusiyyəti ilə fərqlənən növləri mövcud olub. Naxçıvan bölgəsi üçün səciyyəvi olan, ibtidai salın nisbətən təkmilləşdirilmiş forması hesab edilən pələ belə su nəqliyyatı vasitələrindəndir. Quruluşuna və təyinatına görə su nəqliyyatı vasitəsi kimi kələk ilə oxşarlıq təşkil etsə də, ölçülərinə və yükgötürmə qabiliyyətinə görə pələ kiçik, kələk isə nisbətən iri ölçüdə hazırlanırdı. Pələni hazırlamaq üçün 15-20 santimetr diametrli və 2,2-2,5 metr uzunluğunda ağacları bir-birinə paralel qoyur, baş, orta və ayaq hissələrinə isə köndələn şəkildə üç ağac bərkidirdilər. Beləliklə, ağacların arasında əmələ gələn kvadratşəkilli sahələrə qoyun və keçi dərisindən hazırlanmış, içərisinə hava ilə doldurulmuş tuluqlar bağlanırdı. Bundan sonra pələnin üstünə çubuq çəpərə salınırdı. Pələ xüsusi çəp vasitəsi ilə hərəkətə gətirilir, kiçikhəcmli yüklərin və 2-3 sərnişinin digər sahilə keçirilməsi üçün istifadə olunurdu.

Bu haqda Naxçıvan Ensiklopediyasında isə bu fikirlərə rast gəldik: "Pələ ənənəvi su nəqliyyat vasitəsi kimi məşhur olub, ibtidai qayıq növüdür. İndi tamamilə izi itmiş bu nəqliyyat vasitəsi yalnız və yalnız Naxçıvana məxsus olub. Əsasən, çayın bir sahilindən o biri sahilinə keçməkdə, bəzən isə çayın axarı istiqamətində istifadə olunub".

**Nərgiz İSMAYILOVA**

# Şagirdlərə təhsil sovqatı verilib

***Muxtar respublikada sağlamlıq imkanları məhdud, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar dövlətimizin hərtərəfli qayğısı ilə əhatə olunublar. Onların sağlam böyümələri, biliklərə yiyələnmələri, milli-mənəvi dəyərlərə sadiq vətəndaş kimi yetişmələri istiqamətində həyata keçirilən tədbirlər bu qəbildən olan uşaqlara göstərilən dövlət qayğısının bariz ifadəsidir.***

"2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı"nın icrası sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbinin davamlılığını təmin edib, inklüziv və məsafədən (distant) təhsil imkanlarını artırıb. Dövlət proqramının tədrisə cəlb edilmiş aztəminatlı sağlamlıq imkanları məhdud uşaqların məktəbli geyimi və ləvazimatları ilə təmin edilməsi bəndinin icrası diqqət mərkəzindədir.

Bilik Günü ərəfəsində Naxçıvan şəhərində və muxtar respublikanın bütün rayonlarında Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi, Təhsil nazirliklərinin və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin birgə təşkilatçılığı ilə adıçəkilən kateqoriyalardan olan məktəblilərlə görüşlər keçirilib.

Təhsil Nazirliyində təşkil olunan tədbiri giriş sözü ilə təhsil naziri Məmməd Qəribov açaraq muxtar respublikada təhsilə göstərilən diqqət və qayğıdan, o cümlədən təhsil infrastrukturunun yenilənməsindən, uşaqların təhsil hüquqlarının təmin olunması üçün hərtərəfli şəraitin yaradılmasından danışıb.



Əmək və əhalinin sosial müdafiəsi naziri Cavid Səfərov, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova çıxış edərək xüsusi qayğıya ehtiyacı olan uşaqların sosial reabilitasiyası, onların təhsilində müasir üsulların tətbiqi və cəmiyyətə inteqrasiyası istiqamətində həyata keçirilən davamlı tədbirlərdən söz açıblar və şagirdləri qarşıdan gələn Bilik Günü münasibətilə təbrik edərək təhsildə uğurlar arzulayıblar.

Sonda aztəminatlı sağlamlıq imkanları məhdud şagirdlərə, valideynlərini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş məktəbli uşaqlara məktəbli geyim forması, çanta və dərs ləvazimatları verilib.

Tədbirdə iştirak edən sağlamlıq imkanları məhdud uşaqların valideynləri göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

Bilik Günü münasibətilə muxtar respublikada keçirilən tədbirlərdə, ümumilikdə, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 271 aztəminatlı sağlamlıq imkanları məhdud, Təhsil Nazirliyi tərəfindən hər iki valideynini itirmiş 49, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən isə aztəminatlı ailələrdən olan 80 uşağa təhsil sovqatı təqdim edilib.

Qeyd edək ki, hərəkət qabiliyyətinin məhdudluğu səbəbindən məktəbə gedə bilməyən və distant tədrisə cəlb olunan sağlamlıq imkanları məhdud 24 uşağa məktəbli geyim forması, çantası və dərs ləvazimatları evlərində təqdim olunub.

**Fatma BABAYEVA**

## Kukla teatrı yeni tamaşa ilə uşaqların görüşünə gəlib

***Sentyabrın 3-də Naxçıvan şəhərindəki Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin qarşısında Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə tədbir keçirilib.***



Tədbirin iştirakçıları əvvəlcə Adil Babayev adına Naxçıvan Muxtar Respublika Uşaq Kitabxanası əməkdaşlarının hazırladığı “Kitab bayramı”nda nümayiş etdirilən 400-dən artıq ictimai-kütləvi, elmi, bədii, uşaq ədəbiyyatı ilə bağlı kitablarla tanış olublar. Burada uşaq kitabxanasının yazıçı və şairlərdən A.Şaiq, S.Vurğun, M.İbrahimov, N.Həsənzadə, Ə.Cəfərzadə, A.Babayev və başqalarının yubileyləri ilə bağlı hazırladığı metodik kitabçalar da nümayiş etdirilib.

Kitablarla tanışlıqdan sonra tədbir iştirakçılarını burada qurulmuş səhnədə salamlayan Naxçıvan Dövlət Kukla Teatrının bədii rəhbər-direktoru, Xalq artisti Yasəmən Ramazanova onlara yeni dərs ili ərəfəsində təhsildə uğurlar arzulayıb.

Sonra teatrın Alyona Çubaryova və İrina Yeqorovanın “Duz kisəciyi” pyesi əsasında hazırladığı tamaşa nümayiş etdirilib. Rus xalq nağıllarının motivləri əsasında yazılmış əsərdə xeyirxahlıq, insan xoşbəxtliyi, səadət axtarışı, mərhəmət duyğuları təbliğ edilir. Nağıl-tamaşa üslubunda hazırlanan səhnə əsərində əvvəlki tamaşalardan fərqli olaraq bütün rolları aktyorlar canlı ifa edirdilər. “Duz kisəciyi” tamaşasında rus xalq folklorundan gələn motivlər aydın hiss olunurdu.

Tamaşa başlayan kimi şər niyyətlə səhnəyə daxil olan Skarbida (Küpəgirən qarı) diqqəti cəlb edirdi. Onun kəndli qızı Mariyaya verdiyi duz kisəciyi hadisələrin davamı üçün əsas olur. Mariyanın isə İvana verdiyi bu duz kisəciyi hadisələri daha maraqlı edir. Tamaşanın əsas ideyası final səhnəsində İvan surətində açılır. Bu duz kisəciyi, əslində, tamaşada simvolik məna kəsb edir. Duz kisəciyi kimdədirsə, o xəstələnir, əzab çəkir, istəyinə çatmır, çətinliklərə düçar olur. Tamaşanın finalında İvanda olan duz kisəciyinin “sirri” açılır. Skarbidanın verdiyi duz kisəsini paylaşmaqla bu bəlalardan qurtulmaq olur və onun “tilsimi” öz gücünü itirir. Nağıl-tamaşanın əsas ideyası da bundan ibarətdir ki, insan ona xas olan gözəl mənəvi dəyərləri, duyğuları yaxınları ilə bölüşməli və paylaşmalıdır.

Tamaşa uşaqlar tərəfindən maraqla qarşılanıb.

**Əli RZAYEV**

## Sağlam ailə cəmiyyətin sağlamlığıdır

***Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzində sonsuzluğun müalicəsi xidməti yaradılır.***

Doğum Mərkəzində qurulmuş müasir tibbi avadanlıq və cihazlar, yaradılmış şərait burada müxtəlif müayinə və müalicə metodlarının tətbiqinə imkan verir.

Sonsuzluğun müalicəsi xidmətinin təşkili üçün Bakı şəhərində müqavilə əsasında fəaliyyət göstərən türkiyəli mütəxəssis, cərrah, mama-ginekoloq Olcay Turqut Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzinə dəvət olunub. Muxtar respublikanın səhiyyə müəssisələrində çalışan həkim ginekoloqlarla keçirilən görüşdə süni mayalanma, sonsuzluğun müalicəsi, hamiləlik, doğuş, qeysəriyyə, endoskopik cərrahlıq, kistoektomiya, miomektomiya və qadın xəstəlikləri barədə fikir mübadiləsi aparılıb.

Qeyd olunub ki, ekstrakorporal müalicə üsulunu çox vaxt süni mayalanma kimi adlandırırlar. Süni mayalanma ifadəsi digər ölkələrdə işlədilmir. Bu ifadə insanların məsələnin mahiyyətini yanlış anlamasına səbəb olur. Əslində isə burada süni heç nə olmur, belə uşaqların da digərlərindən heç bir fərqi yoxdur.

Sağlam analıq hamiləliyin fəsadsız, təhlükəsiz keçməsindən, sağlam körpələrin dünyaya gəlməsindən, yəni reproduktiv sağlamlıqdan asılıdır. Reproduktiv sağlamlıq dedikdə təkcə hansısa bir ailənin deyil, bütün cəmiyyətin sağlamlığı nəzərdə tutulur. Əhalinin reproduktiv sağlamlığı yüksək olanda ana ölümü baş vermir, uşaq sağlam, genefond sağlam olur.

Olcay Turqut bildirib ki, ginekologiyada çoxlu sayda xəstəliklər var ki, qadının ana olmasına, hamiləlik keçirməsinə imkan vermir və ya hamiləlik tibbi əks-göstəriş sayılır. Belə qadınlar surroqat ana proqramı həyata keçirilənədək ana olmaq xoşbəxtliyindən, təbii ki, məhrum olurdular. Bu proqram imkan yaratdı ki, bu cür qadınlar da öz reproduktiv funksiyalarını həyata keçirsinlər. Adətən, somatik xəstəliklər zamanı da dölün bətndə gəzdirilməsi və həyata gətirilməsi böyük yük sayılır: bu həm həmin xəstəliyin dərinləşməsinə, həm də başqa yeni xəstəliklərin – ürək, böyrək, qaraciyər xəstəliklərinin əlavə olunmasına səbəb olur. Talassemiyalı qadınlar da surroqat ana üsulundan istifadə etməklə ana olmaq xoşbəxtliyinə nail ola bilərlər.

Keçirilən görüşdə sonsuzluğun müalicəsi xidmətinin təşkili zəruri hesab edilib. Olcay Turqut mütəmadi olaraq Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzinə dəvət edilərək yerli həkimlərlə birgə sonsuzluğun müalicəsi, laparoskopik və histereskopik əməliyyatlar aparacaqdır.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Güləş Federasiyasının yetirmələri beynəlxalq turnirdən medallarla qayıdıblar

Türkiyənin Sakarya şəhərində cüdo üzrə VI beynəlxalq turnir keçirilib. Üç gün davam edən turnirdə Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının yetirmələri də mübarizə aparıb. İki idmançı ilə turnirdə təmsil olunan federasiyanın yetirmələrinin hər biri mükafatçılar siyahısına düşüb. 90 kiloqram çəki dərəcəsində mübarizə aparan Abdulla İsmayılov turnirin qalibi adını qazanıb. 38 kiloqram çəki dərəcəsində tatamiyə çıxan Abbas Məmmədov isə yalnız finalda məğlub olub və turniri ikinci pillədə başa vurub.

Sonda qalib idmançılarımıza təşkilatçılar tərəfindən diplom, medal və hədiyyələr təqdim olunub.

## *“Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq”* devizi altında birinciliklər keçirilib

***Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində “Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq” devizi altında yeniyetmələr arasında boks üzrə Naxçıvan şəhər açıq birinciliyi keçirilib.***



Naxçıvan Muxtar Respublikası Boks Federasiyası və Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə keçirilən birincilikdə Naxçıvan şəhərinin idmançıları ilə yanaşı, Şərur rayonunun idmançıları da öz qüvvələrini sınayıblar.

Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin rəisi Xəyal Qurbanov tədbiri açıq elan edərək bildirib ki, bu yarışı keçirməkdə məqsəd yeniyetmələri zərərli vərdişlərdən kənarlaşdırmaq və onları boks idman növünə cəlb etməkdən ibarətdir.

Sonra Boks Federasiyasının sədr müavini Məmmədcəfər Əliyev yarışın qaydaları haqqında idmançıları məlumatlandırıb.

Beynəlxalq Boks Federasiyasının qaydalarına uyğun keçirilən birincilikdə 16 çəki dərəcəsində 40-a yaxın dəri əlcək sahibi mübarizə aparıb. Gərgin mübarizə şəraitində keçən döyüşdə Heydərəli Əliyev (30 kiloqram, Naxçıvan şəhəri), Azad Həsənov (34 kiloqram, Naxçıvan şəhəri), Vüsal Zeynalov (36 kiloqram, Şərur rayonu), Nazim Abazərli (38 kiloqram, Naxçıvan şəhəri), İzzət Cəfərov (40 kiloqram, Şərur rayonu), Nizami Novruzov (42 kiloqram, Naxçıvan şəhəri), Ülvi Süleymanov (44 kiloqram, Naxçıvan şəhəri), Hüseyn Məmmədov (44,5 kiloqram, Naxçıvan şəhəri), Ayxan Quliyev (46 kiloqram, Naxçıvan şəhəri), Ayxan Süleymanov (48 kiloqram, Naxçıvan şəhəri), Kənan Şəfiyev (50 kiloqram, Şərur rayonu), Hidayət Məmmədov (52 kiloqram, Naxçıvan şəhəri), Nadir Cəfərov (54 kiloqram, Naxçıvan şəhəri), Azər Abbaszadə (58 kiloqram, Naxçıvan şəhəri), Kamran Allahverdiyev (62 kiloqram, Naxçıvan şəhəri), Məhəmməd Ələsgərov (75 kiloqram, Naxçıvan şəhəri) bütün rəqiblərini üstələyərək birinciliyin qalibi olublar.

Sonda hər çəki dərəcəsində yer tutan idmançılara diplomlar təqdim edilib.

* * *

Şərur Rayon Gənclər və İdman İdarəsi və Naxçıvan Muxtar Respublikası Şərq Döyüşü Sənəti Federasiyasının təşkilatçılığı ilə “Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq” devizi altında yeniyetmələr arasında keçirilən kikboksinq üzrə Şərur rayon açıq birinciliyinə yekun vurulub. 60 idmançının iştirak etdiyi birincilikdə Şərur rayonunun idmançıları ilə yanaşı, Naxçıvan şəhərinin idmançıları da iştirak ediblər. Gərgin və maraqlı keçən mübarizədə İsmayıl Yaqubov, İbrahim Musayev, Nurxan Mirzəyev, Fərman Rzayev, Əhməd Rzayev, Ayhan İmranlı, Araz Hüseynzadə, Səhəd Əsədov, Zeynalabdin Musayev, Sadiq Hacıyev, Sinan Kazımov və Uğur Əliyev qalib adını qazanıblar.

Sonda qaliblərə təşkilatçılar tərəfindən diplomlar təqdim olunub.

**Ceyhun MƏMMƏDOV**

## Naxçıvan Muxtar Respublikasının Dövlət Energetika Agentliyi üzrə 2016-cı ilin avqust ayında verilən elektrik enerjisinin miqdarı, elektrik enerjisi satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/№ | Şəhər və rayonlar | Verilən elektrik enerjisinin miqdarı (min kvt/saat) | Elektrik enerjisinin dəyəri (min manat) | Toplanan vəsait (min manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Ordubad rayonu | 1354 | 94,8 | 95,2 | 100,4 |
| 2. | Şahbuz rayonu | 461 | 32,3 | 32,4 | 100,3 |
| 3. | Kəngərli rayonu | 770 | 53,9 | 54,0 | 100,2 |
| 4. | Culfa rayonu | 1375 | 96,3 | 96,4 | 100,1 |
| 5. | Babək rayonu | 2641 | 184,9 | 185,0 | 100,1 |
| 6. | Naxçıvan şəhəri | 4380 | 306,6 | 306,6 | 100,0 |
| 7. | Şərur rayonu | 2070 | 144,9 | 144,9 | 100,0 |
| 8. | Sədərək rayonu | 340 | 23,8 | 23,8 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 32194 | 2253,5 | 2242,1 | 99,5 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **45585** | **3191,0** | **3180,4** | **99,7** |

**Qeyd:** Avqust ayında texniki itki nəzərə alınmaqla daxil olan 45 milyon 585 min kilovat-saat elektrik enerjisinin dəyəri 3 milyon 191 min manat olmuş, cəmi 3 milyon 180 min 400 manat vəsait toplanmışdır ki, bu da istifadə olunan enerjinin dəyərinin 99,7 faizini təşkil edir.

## Naxçıvan Muxtar Respublikası üzrə 2016-cı ilin avqust ayında verilən təbii qazın miqdarı, təbii qaz satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/№ | Şəhər və rayonlar | Təbii qazın həcmi (kubmetr) | Təbii qazın dəyəri (manat) | Daxil olan vəsait (manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Culfa rayonu | 338750 | 33875 | 34006 | 100,4 |
| 2. | Şahbuz rayonu | 208014 | 20801 | 20871 | 100,3 |
| 3. | Ordubad rayonu | 385075 | 38508 | 38608 | 100,3 |
| 4. | Sədərək rayonu | 93822 | 9382 | 9404 | 100,2 |
| 5. | Kəngərli rayonu | 304825 | 30483 | 30536 | 100,2 |
| 6. | Şərur rayonu | 646112 | 64611 | 64671 | 100,1 |
| 7. | Babək rayonu | 614250 | 61425 | 61455 | 100,0 |
| 8. | Naxçıvan şəhəri | 836636 | 83664 | 83683 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 1731466 | 173107 | 144214 | 83,3 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **5158950** | **515856** | **487448** | **94,5** |

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Rauf Əliyev
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1050. Sifariş № 669